**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.243**

**SEVDA CƏFƏROVA ***

# XALQ MAHNILARININ JANR XÜSUSIYYƏTLƏRININ BƏSTƏKAR MAHNILARINDA ISTIFADƏ METODIKASI

*Üzeyir Hacıbəyov, Azərbaycanın professional musiqisinin banisi və xalqının mədəniyyət tarixində önəmli bir şəxsiyyətdir. O, həm də görkəmli bəstəkar, dramaturq, jurnalist və ictimai xadimdir. Hacıbəyovun ən böyük töhfələrindən biri xalq musiqisini toplamaq, tədqiq etmək və nota salmaq işindəki xidmətləri olmuşdur. Azərbaycan xalq musiqisinin zəngin irsini qorumaq və yaymaq məqsədilə Hacıbəyov və Müslüm Maqomayev 1927-ci ildə «Azərbaycan türk xalq mahnıları» məcmuəsini nəşr etdilər. Bu məcmuə Azərbaycan musiqi folklorunun toplanmasında mühüm bir addım oldu.*

*Üzeyir Hacıbəyov, xalq mahnılarını böyük bir sevgi ilə yazıb və onlara xüsusi diqqət ayırıb. O, xalq mahnılarının musiqi sərvəti olduğunu qeyd edərək, onların tədqiqinə böyük əhəmiyyət vermişdir. Azərbaycan xalq mahnıları, həmçinin, müasir dövrdə də tədqiqatçılar tərəfindən öyrənilməkdə və qorunmaqdadır. Bülbülün rəhbərliyi ilə 1932-ci ildə yaradılan Elmi Tədqiqat Musiqi Kabinəsi xalq mahnılarının toplanması və yayılmasında mühüm rol oynamışdır.*

*Xalq mahnıları, Azərbaycanın zəngin mədəniyyətinin bir hissəsi olaraq, xalqın həyat tərzini, mübarizəsini, hiss və həyəcanlarını əks etdirir. Onlar müxtəlif janrları və formaları ilə zəngindir və xalqın mənəvi dəyərlərini tərənnüm edir. Xalq mahnılarının melodiyalarındakı zənginlik və müxtəlif ritmik xüsusiyyətlər onları həm musiqiçilər, həm də dinləyicilər üçün cazibədar edir.*

*Müasir dövrdə Azərbaycan dövlətinin apardığı siyasət nəticəsində xalq mahnıları qorunur və təbliğ edilir. Üzeyir Hacıbəyovun və digər musiqiçilərin səyləri ilə Azərbaycan xalq musiqisi elmi və mədəni bir sərvət kimi gələcək nəsillərə çatdırılır. Bu musiqi irsinin qorunması və yayılması, həm də xalqın mədəniyyətinə olan ehtiramın ifadəsidir.*

***Açar sözlər:*** *xalq mahnısı,janr,Azərbaycan bəstəkarları,musiqi, ritmik xüsusiyyətlər*

## Giriş

Hər bir xalqın mədəniyyət tarixində elə simalar var ki, onlar həmin mədəniyyətin sütunu sayılır. Azərbaycan mədəniyyətinin belə sütunlarından biri də Üzeyir Hacıbəyovdur. Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar, görkəmli ictimai xadim, jurnalist və dramaturq qeyri-adi istedadını böyük bir amala – xalq ideallarına sərf edərək öz adını xalqının mənəviyyat tarixinə qızıl hərflərlə yazmışdır.

Bəstəkar Üzeyir bəy, publisist Üzeyir bəy musiqişünas, Üzeyir bəy, dramaturq Üzeyir bəy... Təbiət bu nadir insanı yaradarkən qətiyyən xəsislik etməmiş, ona öz fitrətindən heç nə əsirgəməmişdir. Üzeyir bəyin qabiliyyət və istedad sahələrinin hamısı bir ahəngdarlığın, bir bütövlüyün ifadəsidir!

## Əsas məzmun

Üzeyir bəy xalq mahnılarından böyük sevgi və qayğı hissi ilə yazırdı: "İş bundadır ki, bu gün bizim musiqi və musiqi ədəbiyyatı naminə hər nəyimiz varsa, o da bizim xalq mahnılarımızdır. Xalq mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən layiqincə istifadə edə bilməmişik"

Azərbaycan xalq mahnıları daima Azərbaycanın dahi bəsbəkarları Ü. Hacıbəyov və M. Maqomayevin diqqət mərkəzində olmuşdur. Onlar, Azərbaycan xalq mahnılarını toplamağa, yazmağa və öyrənməyə hələ Qori müəllimlər seminariyasında oxuduqları illərdə başlamışlar. Bunu, onların əlyazmaları şəkilində olan ilk musiqi albomları bir daha təsdiq edir.

1927-ci ildə Ü. Hacıbəyov və M. Maqomayev Azərbaycanda ilk dəfə olaraq "Azərbaycan türk xalq mahnıları" məcmuəsini nəşr edirlər. Məcmuəyə daxil olan 33 mahnıdan ikisini Üzeyir bəy özü bəstələmiş, 19 mahnını isə Cabbar Qaryağdı oğlunun ifasından nota almışdır. Qalan mahnıları Zülfüqar Hacıbəyov toplamış, Üzeyir Hacıbəyov və Müslüm Maqomayev isə onları nota salmışlar.

Görkəmli rus folklorçu, professor P. Fridolinin həmin məcmuəyə yazdığı müqəddimədə deyir ik, "Bu məcmuə yalnız ilk başlanğıcdır, lakin elə başlanğıcdır ki, Azərbaycan musiqi həyatında yeni şəfəq gətirmişdir". Həqiqətən də bu məcmuə Azərbaycanda musiqi folklorunun toplanmasında və nəşrində ilk mühüm addım idi.

Həmin dövrdə M. Maqomayevin topladığı üç yüzdən artıq Azərbaycan xalq musiqi nümunələrinin

əlyazmaları da böyük maraq doğurur. Xalq yaradıcılığını öyrənmək üçün bu məcmuə zəngin, maraqli materiallarla tərtib olunmuşdur. Xüsusilə məcmuənin qeydlər şöbəsində harada, nə vaxt və kim tərəfindən toplanmış musiqi nümunələri haqqında faktik materiallar çox qiymətlidir.

Azərbaycan xalq musiqisinin nota salınması, tədqiqi və nəşr edilməsi sahəsində növbəti böyük addım 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Elmi Tədqiqat Musiqi Kabinəsinin yaradılması ilə bağlıdır. Xalq musiqisinin misilsiz bilicisi məşhur müğənni Bülbülün rəhbərlik etdiyi bu kabinə musiqi folklorunun toplanması və çap olunması ilə müntəzəm məşqul olmağa başlayır. Həmin təşkilatın xətti ilə respublikamızın müxtəlif zona və rayonlarına ekspedisiylar təşkil olunur. Bu məqsədlə, o dövrdə öz istedadı ilə fərqlənən bir sıra Azərbaycan bəstəkarları: A.Zeynallı, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, S.Rüstəmov, T.Quliyev, Z.Bağırov Qarabağ zonasında, Lənkaran, Xaçmaz, Quba, Qusar, Dilican, Borcalı və başqa rayonlarda olmuş, xeyli miqdarda materiallar toplamışlar. Həmin təşkilatın fəaliyyəti, eyni zamanda, qocaman ifaçıların iştirakı ilə xalq musiqi nümunələrini texniki səs yazma vasitəsilə toplamaqdan da ibarət idi. Bülbülün təşəbbüsü ilə, o dövrdə fonoqrafın vasitəsilə C.Qaryağdı, Q.Primov, S.Şuşalı, Aşıq Əsəd Rzayev, Aşıq Mirzə Bayramov və başqa sənətkarların ifasında xeyli miqdarda xalq mahnıları, aşıq və oyun havaları toplanmışdır. Xalq musiqisinin toplanması ilə yanaşı, bu qiymətli nümunələrin nəşr edilməsində də Bülbülün böyük xidməti olmuşdur.

Azərbaycan musiqi mədəniyyətində bəstəkarlıq sənətinin formalaşması, musiqi janrlarının mənimsənilməsi şifahi ənənəli musiqi ilə qarşılıqlı əlaqədə özünü göstərir. Demək olar ki, bütün musiqi janrlarının – musiqili-səhnə, vokal, instrumental və s. janrların dərin kökləri şifahi ənənəli musiqidən qidalanır. Musiqişünaslıqda bəstəkar yaradıcılığı ilə şifahi ənənəli musiqi əlaqələrinin araşdırılması hər zaman aktual məsələ olmuşdur və bu gün də öz aktuallığını saxlamışdır.

Musiqi mədəniyyətində şifahi ənənəli musiqi sahələri– musiqi folkloru, aşıq yaradıcılığı və muğam sənəti özünəməxsus musiqi quruluşuna malik olmaqla yanaşı, həm də bir-birilə əlaqədardır, eyni zamanda, bütün bu sahələr bəstəkar yaradıcılığı ilə qarşılıqlı təsir şəraitində inkişaf etdirilir. Bu təsirdən həm şifahi ənənəli musiqinin, həm də bəstəkar yaradıcılığının maraqlı cəhətlərlə zənginləşməsi özünü qabarıq göstərir.

Şifahi ənənəli musiqinin əsas janrları - xalq mahnı və rəqsləri, aşıq havaları, muğamlar, zərbi-muğamlar, təsnif və rənglər bəstəkar yaradıcılığı üçün əsas mənbəyə çevrilir. Bu janrlara aid çoxsaylı nümunələr bəstəkarlar tərəfindən notlaşdırılıb işlənilir, həmçinin, onların klassik musiqi janrları ilə əlaqələndirilməsi nəticəsində dəyərli əsərlər meydana gəlir. Bu baxımdan yanaşsaq, həmçinin, şifahi ənənəli musiqinin bəstəkar yaradıcılığında yeni janrların yaranmasına təkan verdiyini də müşahidə edə bilərik.

Bizim bu mövzuya müraciətimiz şifahi ənənəli musiqi janrlarının vokal musiqiyə təsirinin öyrənilməsi və bundan irəli gələrək, bəstəkarların vokal əsərlərində janr və musiqi dili sahəsində maraqlı cəhətlərin üzə çıxarılması ilə bağlıdır.

Azərbaycan xalq musiqisinin böyük hissəsini Azərbaycan xalq mahnıları təşkil edir. Xalq mahnılarında xalqın yüksək mənəviyyatı, ümid və arzuları, əhval-ruhiyyəsi tərənnüm olunur. Azərbaycan xalq mahnıları rəngarəngliyinə, məzmununa görə bir- birindən fərqlənir. Azərbaycan xalq musiqi yaradıcılığının ən qədim və dəyərli nümunələrindən biri mahnı janrıdır. Xalq mahnıları xalq yaradıcılığı irsimizin böyük bir hissəsini təşkil edir. Xalq mahnılarında xalqın həyat tərzi, düşüncə tərzi, psixologiyası, adət-ənənələri, ümid və arzuları, böyük ideyalar, dərin fikirlər təcəssüm olunmuşdur. Xalq mahnılarında xalqın bütün həyat yolu, tarixi hadisələr,qəhrəmanları, inqilabları, mübarizəsi, rəşadəti, şücaəti, əmək və məşğuliyyəti, fikirləri, hiss və həyəcanları, arzusu, amalı, mənəvi səviyyəsi ehtiva edilir. Xalqımızın mənəvi sərvəti olan bu mahnılar insanları əməyə, mübarizəyə ruhlandırmış, adət-ənənələrimizə, məişətimizə sıx daxil olaraq gündəlik həyatımızın bir hissəsinə çevrilmişdir. Mahnı çox sevilən musiqi janrıdır. Azərbaycan xalqının həyatı,mübarizəsi, zərif -bəşəri duyğuları, sevinc və kədəri xalq mahnılarında öz əksini tapmışdır. Azərbaycan xalq mahnılarının hamısı klassik muğamlara əsaslanmış, onlardan bəhrələnmişdir.

Xalq mahnıları qədim dövrlərdən bəri yaranaraq, şifahi surətdə - yaddaş vasitəsilə nəsildən-nəslə keçmiş və təkmilləşərək, dəyişilərək müxtəlif variantlarda müasir dövrə gəlib çatmışdır. Xalq

mahnılarının sözlərinin və musiqisinin müəllifləri, əsasən məlum deyil. Çox zaman bu mahnılar insanların hiss və duyğularının ifadəsi olaraq yaranır. Xalq mahnısı xalqın arzu və düşüncələrini, onun dünyagörüşünü, həyat tərzini və məişətini, əmək prosesini, adət və ənənələrini, mərasimlərini əks etdirir. Xalq mahnıları müxtəlif dövrlərdə musiqişünasların və bəstəkarların diqqət mərkəzində olmuşdur. Bu onların müxtəlif aspektlərdə təhlilində, toplanıb nota salınmasında, müxtəlif işləmələrin meydana çıxmasında, bir sıra özünəməxsus xüsusiyyətlərinin üzə çıxarılmasında özünü göstərir. Bu da təsadüfi deyil... Çünki xalq musiqisi (mahnılar) Azərbaycan xalqının ayrılmaz bir hissəsi, ilk musiqisidir. Azərbaycan xalqını xalq musiqisiz, yəni mahnısız təsəvvür etmək mümkün deyil. Xalq mahnıları xalqın bütün dövrlərində onu əhatə edən bütün sahələrdə iştirak etmiş, xalqın ya işini yüngülləşdirmiş, ya onu işləməyə sövq etmiş, müəyyən hiss və həyəcanlarını, sevgini göstərmiş, sosial mühiti əks etdirmiş, ya da məişəti ilə əlaqədar yaranmışdır. Məhz bu səbəbdən xalq mahnılarının bir sıra janr və formaları meydana gəlmişdir.

Qeyd etdiyimiz kimi, xalq mahnıları bir sıra tədqiqatçıların əsərlərində öz əksini tapmışdır.(8) Biz M.S.İsmayılovun sadaladığımız iki əsərinə söykənərək onun məhz mahnı musiqisinin xüsusiyyətləri ilə bağlı fikirlərini oxuculara çatdıracayıq. O, ilk əvvəl göstərmişdir ki, xalq mahnılarında ən yaxşı oğul və qızlarımızın qorxmaz surəti, igidlik və qəhrəmanlığı, onların ümid və arzuları tərənnüm olunur. Bununla bərabər tədqiqatçı zəhmət proseslərinin, toy və yas mərasimlərinin və ənənələrin də xalq mahnılarında əks olunmasından söz açır. Məhz bu səbəbdən Azərbaycan xalq mahnıları çox janrlı olduğu kimi, mətn və məzmun cəhətdən də çoxcəhətlidirlər. Müəllifə görə xalq mahnılarına zəhmət, qəhrəmanlıq, məişət, lirik, məzhəkəli mahnılar, beşik nəğmələri aiddir. (6)

Doğrudan da Azərbaycan xalq mahnılarının melodiyalarındakı rəngarənglik - lad, vəzn əsasının və musiqi ifadə vasitələrinin müxtəlif şəkillərdə əks olunması öz növbəsində bədii-emosional səslənməni təmin edir. Mövzu və janr qrupundan asılı olmayaraq, istər vokal, istərsə də vokal-instrumental ifaya marağı artırır. Azərbaycan xalq mahnılarının melodiyalarındakı əlverişlilik, xüsusilə başlanğıc, əsas müşayiətçi melodiya liriklik, oynaqlıq, ritmik əlvanlılıq ifaçılıq sənəti üçün çox səciyyəvidir. Doğurdan da, xalq mahnılarının əsasını təşkil edən melodiyanın rolu və əhəmiyyəti çox böyükdür. Mahnı məhz melodiya və poetik mətnin vəhdətindən yaranmışdır. Melodiyanın zənginliyi, çoxşaxəliliyi onu sübut edir ki, Azərbaycan xalq mahnıları zəngin və rəngarəng inkişaf prosesinə malikdir və professional işlənmə dərəcəsinə qədər ucaldılmış, bu günkü dövrə qədər öz təravətini itirməyərək daha da zənginləşmişdir.

M.S.İsmayılovun xalq mahnılarının metro-ritmik xüsusiyyətləri də diqqətdən kənar qalmamışdır. O, bu barədə aşağıdakıları qeyd edir: "Azərbaycan mahnıları metro-ritmik xüsusiyyətlətinə görə də çox zəngin və orijinaldır. Bir çox mahnılarımız var ki, onlarda ritmik hərəkət təkcə adi çərək və səkkizliklərlə deyil, onaltılıq, otuzikilik notlarla bərabər, sinkop triol, kvintol və sairədən təşkil olunan müxtəlif kombinasiyalı bir çox ritmik fiqurasiyalar da iştirak edir. 6/8, 3/4, 3/8" kimi metrik vəznlərə Azərbaycan xalq mahnı yaradıcılığında çox təsadüf olunur. Bu vəznlər içərisində ən çox yer tutan 6/8 ölçüsüdür. Xalq mahnılarımızın çox hissəsi, demək olar ki, bu ritmik vəznə əsaslanır". (9)

Xalq mahnılarımız minilliklərin, illərin daş süzgəcindən keçib yaşarlıq qazanıb. Öz duruluğu, mənəvi təmizlik aşılamaq missiyası ilə dünyamızı təmizləyir. Azərbaycan milli musiqisi çox geniş bir sahədir. Bura xalq mahnılarından tutmuş yallılara, halaylara, qımqımalara, gümüldəmələrə qədər çox şey aiddir. Xalq mahnılarında xalqımızın məişətinə, sevgiyə, ailəyə, nakam məhəbbətə, təbəqələşməyə münasibət özünü qabarıq şəkildə göstərir. Xalq mahnılarımız ibtidaidən başlayaraq aliliyə qədər böyük və şərəfli bir yol keçib. Düzdür, illər xalq mahnılarımızın bir çoxunun mətninə pis mənada sığal çəkib, sözlər təhrif edilib. Amma bu heç də o mahnıların yaşamasının qarşısını almayıb, onlar öz mahiyyətini qoruyub saxlayıb. Təbii ki, xalq mahnılarının qorunması və mühafizəsində əsas rolu el sənətkarları oynayıb, sonra isə o mahnıları xalq, ictimaiyyət qoruyub, təbliğ edib. O mahnılara hər zaman tələbat olduğu üçün onlar özlərinə həyat qazana bilib. Müasir dövrümüzdə xalq mahnıları ən populyar nümunələr kimi sevilməkdə və təbliğ etməkdə davam etdirilir.

Azərbaycan dövlətinin xalq mahnıları örnəklərinə bəslədiyi böyük hörmət və xoş münasibət özünü bir sıra hallarda göstərir. Yeri gəlmişkən, qeyd edək ki, xalq mahnılarının müdafiəsi sahəsində Azərbaycan dövlətinin apardığı xüsusi siyasət həm musiqiçilərin, həm də ictimaiyyətin ürəyincədir.

Deyək ki, hələ sovet illərindən Azərbaycan xalq mahnılarının toplanmasına, araşdırılmasına, lentə köçürülməsinə başlanıb. Xalq mahnılarının mühafizəsi xalqımızın qədirşünas insanlarını hər zaman düşündürüb. Müstəqil Azərbaycanda isə xalq mahnılarının müdafiəsi sahəsində dövlət tərəfindən bəlli siyasət yürüdülür. Hətta Ümummilli lider Heydər Əliyev tərəfindən 2003-cü il 16 may tarixində imzalanan "Azərbaycan folklor nümunələrinin hüquqi qorunması Haqqında" 16 maddədən ibarət olan fərmanda xalq mahnılarının müdafiəsi məsələsinə də geniş yer ayrılıb. Sənəddə bildirilir ki, xalqımızın zəngin musiqi xəzinəsini bəzəyən xalq mahnılarımız, mərasim, yallı, oyun və digər hərəkət nümunələri qorunmalı, təbliğ edilməlidir. Bu, birbaşa dövlətin Azərbaycan xalq mahnılarına verdiyi böyük dəyərin inikası idi. Sözügedən rəsmi sənəd həm də onu ifadə edir ki, dövlətlə yanaşı, ictimaiyyət də xalq mahnılarının qeydinə qalmalı, onu qorumalı, itib-batmağa qoymamalıdır. Əslində, bu sənəddən istifadə edib xalq mahnıları külliyyatımızı ən yüksək səviyyədə qoruya bilərik.

Musiqişünas, tanınan ziyalı Taryel Məmmədov yazırdı ki, Azərbaycanda musiqi quruculuğunun banisi, dahi bəstəkar, görkəmli musiqi xadimi, publisist, dramaturq, maarifçi, müəllim, alim Üzeyir Hacıbəyov qələminə məxsus "Azərbaycan xalq musiqisinin əsasları" kitabı klassik ensiklopedik traktatlara əsaslanan elmi tədqiqat əsəri olub. Alimə görə, o, XX əsrin musiqili-ədəbi abidəsi kimi qiymətləndirilir. Ü. Hacıbəyovun bu əsərində xalq mahnılarına xüsusi fikir verilir və orada onun mənşəyi, aşıladığı bədii-estetik ruh dəyərləndirilir. (12)

Musiqişünas Aybəniz Məmmədlinin sözlərinə görə, Azərbaycanda xalq mahnılarına ən böyük qayğı Üzeyir Hacıbəyov tərəfindən göstərilib. Üzeyir Hacıbəyovun rəhbərliyilə hazırda onun adını daşıyan Bakı Musiqi Akademiyasında folklor musiqisinin toplanması, tədqiqi və nota alınması üzrə kabinet yaradılıb. Musiqişünas bildirdi ki, bu işdə görkəmli müğənnimiz, professor Bülbülün də rolu az olmayıb. 1932-ci ildə Bülbülün təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyası nəzdində Azərbaycan xalq musiqisini öyrənən elmi-tədqiqat kabineti yaradılıb: "1945-ci ildən isə Azərbaycan xalq musiqisinin, xalq mahnılarının tədqiqi ilə Azərbaycan Milli Elmlər Akademiyasının İncəsənət İnstitutu məşğul olur. Azərbaycan xalq mahnıları özündə bir neçə sahəni birləşdirir, hətta bu mahnıların özlərini müxtəlif janra aid etmək olar. (12)

Azərbaycanda xalq mahnılarının toplanmasında, təbliğində, yayılmasında müstəsnaxidməti olan bir neçə şəxs, musiqiçi olub. Onlardan biri xalq xanəndəsi və onlarla mahnının müəllifi Cabbar Qaryağdıoğludur. Cabbar Qaryağdıoğlu xalq mahnılarının yazıya alınmasında Üzeyir bəyə və professor Bülbülə böyük dəstək verib. Yəni bilicisi olduğu mahnıları onlara bir-bir ifa edib ki, həmin nümunələr lentə alınsın. Xalq mahnılarının özəlliyi ondan ibarətdir ki, onlar həddindən artıq qədimdir. Biz onlarca əski mahnını nümunə gətirə bilərik ki, onun mətni çox arxaikdir.

Ümumiyyətlə, Azərbaycan poetik folklor materillarında azhecalılıq tarixən üstünlük təşkil edir. Görürsüz, əksər mətnlər 6-7-8 hecadan ibarətdir. Bu da xalqın söz yaradıcılığının qədimlərə söykənməsilə bağlıdır. Bayatılar üzərindən boylanan xalq mahnılarımız çeşidliliyilə diqqəti çəkir. Bir şeyi də qeyd edim ki, dünya xalqlarının hər birinin xalq türküləri var, amma onların sayı belə çox deyil, amma bizim mahnıların sayı həddən artıq çoxdur. Bu da bizim xalqın daha yaradıcı və öz keçmişinə bağlı olmasını düşünməyə əsas verir. Çünki heç bir xalqın bu qədər xalq mahnısı yoxdur. Hətta böyük xalqlar belə, bu sahədə bizimlə müqayisədə kasıbdır. Amma biz bu keyfiyyətimizə görə çoxlarından irəlidəyik.

**Nəticə**

Mən hesab edirəm ki, xalq mahnılarımızın müdafiəsilə ellikcə məşğul olmalıyıq. Amma bəzən görürsən ki, xalq öz mahnısını qoruyur, amma musiqiçilər özləri xalq mahnılarına istənilən qayğını göstərə bilmir. Lirik mahnı yaradıcılığı xalqın milli bədii özünüifadə vasitələrindən ən güclüsünə çevrilib. Bu mahnıların bəziləri məzmununa görə nikbin, şad ruhda, bəziləri isə qəmli, kədərli ruhdadır. Birincilər üçün geniş melodiya, oynaq ritm, segah ladı səciyyəvidirsə, qəmli, kədərli ruhda olan məhəbbət mahnıları üçün «ah», «vay» kimi nidalar, «Bayatı-Şiraz»ın lad əsası, 6/8 və 3/4 ölçülərinin növbələşməsi və s. xasdır. Birinci qrup mahnılara «Gül oğlan», «Yar qonaq gələcək», «Qoy gülüm gəlsin» ikinci qrupa «Səndən mənə yar olmaz», «Onu demə, zalım yar» və s. mahnılar daxildir. Lirik mahnılar forma etibarilə də daha geniş və mürəkkəbdir. Onlar üçün kuplet forması, həmçinin mürəkkəb iki hissəli və rondo formasına bənzər forma, variantlı təzələnmənin təkrarı, sekventlik və

s. xasdır. Azərbaycan xalqının mahnı yaradıcılığında vacib yeri həm də epik-tarixi və qəhrəmani mahnılar tutur. Hələ qədim dövrlərdən yaranmağa başlamış bu mahnılar ölkənin tarixində baş vermiş hər hansı tarixi hadisəyə və ya xalqın həyatında görkəmli rol oynamış xalq qəhrəmanlarına həsr edilmiş mahnılardır. Koroğlu haqqında, onun sevgilisi Nigar və mübariz yoldaşları dəlilər, vəfalı atı Qırat haqqında silsilə mahnilar buna misaldır. Qaçaq Nəbi, Qaçaq Kərəm, Qaçaq Ismayıl, Dəli Ali, Qanadlı Nağı vəs. bu kimi qəhrəmanlar haqqında dastan və mahnılar yaranmışdı. Məsələn, «Gedən gəlmədi», «Piyada Koroğlu», «Qaçaq Nəbi» bu cür mahnılardandır.

## ƏDƏBİYYAT

1. Əliyeva F.Ş. Azərbaycanda bəstəkarlıq ənənəsinin yaranması tarixindən.// « Musiqi dünyası », 2002, № 1-2 (11),
2. Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə. B.: Elm, 2007, 314 s.
3. Hacıbəyov Ü Azərbaycan xalq musiqisinin əsasları. Dördüncü nəşri. B.: 1985, 154 s.
4. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri. B.: 1985
5. İsmayılov M. Azərbaycan xalq musiqisinin janrları. - Bakı: Azərbaycan Elmlər Akademiyası, 1960.
6. İsmayılov M. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik ocerklər. - Bakı: Elm, 1991.
7. İsazadə Ə.İ. Azərbaycan xalq musiqi nümunələrinin nota

***Naxçıvan Dövlət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: ceferovas@gmail.com***

**Sevda Jafarova**

## METHODOLOGY OF USE OF GENRE FEATURES OF FOLK SONGS IN COMPOSER'S SONGS

Üzeyir Hacıbəyov is the founder of Azerbaijan's professional music and an important figure in the cultural history of his nation. He was also a prominent composer, dramatist, journalist, and public figure. One of Hacıbəyov's greatest contributions was his work in collecting, studying, and transcribing folk music. In 1927, Hacıbəyov and Muslim Magomayev published the "Azerbaijani Turkish Folk Songs" collection to preserve and promote the rich heritage of Azerbaijani folk music. This collection became a significant step in the compilation of Azerbaijani musical folklore.

Üzeyir Hacıbəyov composed folk songs with great love and paid special attention to them. He emphasized that folk songs were a musical treasure and placed great importance on their study. Azerbaijani folk songs are still being studied and preserved by researchers in the modern era. In 1932, the Scientific Research Music Cabinet, created under the leadership of Bülbül, played an important role in the collection and dissemination of folk songs.

Folk songs, as part of Azerbaijan's rich culture, reflect the lifestyle, struggles, emotions, and passions of the people. They are diverse in genre and form and embody the spiritual values of the nation. The richness of melodies and various rhythmic characteristics of folk songs make them appealing both to musicians and listeners.

In the modern era, thanks to the policies of the Azerbaijani government, folk songs are preserved and promoted. Through the efforts of Üzeyir Hacıbəyov and other musicians, Azerbaijani folk music is passed down to future generations as a scientific and cultural heritage. The preservation and dissemination of this musical heritage also express the respect for the culture of the people.

**Keywords:** *folk song, genre, Azerbaijani composers, music, rhythmic characteristics.*

**Севда Джафарова**

## МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ ЖАНРОВЫХ ОСОБЕННОСТЕЙ НАРОДНЫХ ПЕСЕН В КОМПОЗИТОРСКИХ ПЕСНЯХ

Узейир Гаджибеков — основатель профессиональной музыки Азербайджана и важная личность в культурной истории народа. Он был также выдающимся композитором, драматургом, журналистом и общественным деятелем. Одним из самых значительных вкладов Гаджибекова было его участие в сборе, исследовании и записи народной музыки. С целью сохранения и распространения богатого наследия азербайджанской народной музыки, в 1927 году Гаджибеков и Муслим Магомаев издали сборник «Азербайджанские турецкие народные песни». Этот сборник стал важным шагом в процессе сбора азербайджанского музыкального фольклора.

Узейир Гаджибеков с большой любовью писал народные песни и уделял им особое внимание. Он подчеркивал, что народные песни являются музыкальным богатством, и придавал большое значение их изучению. Азербайджанские народные песни продолжают исследоваться и сохраняться современными учеными. В 1932 году под руководством Бюльбюля был создан Научно-исследовательский музыкальный кабинет, который сыграл важную роль в сборе и распространении народных песен.

Народные песни являются неотъемлемой частью богатой культуры Азербайджана и отражают образ жизни, борьбу, чувства и переживания народа. Они разнообразны по жанрам и формам, воспевают духовные ценности народа. Мелодии народных песен, их богатство и разнообразие ритмических особенностей делают их привлекательными как для музыкантов, так и для слушателей.

В современном Азербайджане благодаря государственной политике народные песни сохраняются и популяризируются. Усилия Узейира Гаджибекова и других музыкантов способствуют передаче азербайджанской народной музыки как научного и культурного наследия будущим поколениям. Сохранение и распространение этого музыкального наследия является выражением уважения к культуре народа.

**Ключевые слова:** *народная песня, жанр, азербайджанские композиторы, музыка, ритмические особенности*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.01.2025**
**Son daxilolma tarixi:19.02.2025**